Bosniya və Herseqovinanın Federal Xəbərlər Agentliyi: İlham Əliyev Azərbaycan xalqını firavanlığa və tərəqqiyə aparan liderdir

24.12.2019 [10:45]

A⁻ A⁺

Sarayevo, 24 dekabr, AZƏRTAC

Bosniya və Herseqovinanın Federal Xəbərlər Agentliyi (FENA) "Əliyev - Azərbaycanı doğru yolla irəliyə aparan lider" adlı məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, məqalənin müəllifi Bosniya və Herseqovinanın, Serbiya və Monteneqronun Yazıçılar Assosiasiyasının, Jurnalistlər Assosiasiyasının və bu ölkənin elm ictimaiyyətinin görkəmli nümayəndələrini özündə birləşdirən "Krug 99" Müstəqil İntellektuallar Assosiasiyasının üzvü professor Sabahudin Hadjialiçdir.

Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsindən, liderlik keyfiyyətlərindən bəhs edilir. Bildirilir ki, hər bir ölkədə dövlətini və xalqını yaxşı gələcəyə aparan siyasi liderə ehtiyac var. Həmin şəxs milli lider kimi hakimiyyətin geniş ictimai bazasının maraqlarını birləşdirməyi bacarmalı, xalqın nəbzini tutmalıdır. Amma liderlik xüsusi keyfiyyətdir və heç də hər insan özündə bu keyfiyyəti formalaşdıra bilməz.

Ümumiyyətlə, dövlət başçısını liderə çevirən, ilk növbədə, onun zəkası, səriştəsi və fəaliyyət əzmidir. Dövlət başçısı yalnız o halda siyasi lider statusu əldə edir ki, xalqın ona ehtiyacı olsun, xalqın əksəriyyətinin ideyası və iradəsi konkret şəxsiyyətdə təcəssüm etsin, xalqın gözləntiləri bu şəxsiyyətdə əks olunsun. Xalq həmin şəxsiyyətə lider və dövlət başçısı mandatını yalnız o halda təqdim edə bilər ki, bu şəxsiyyət öz iradi, mənəvi, siyasi göstəricilərinə, təşkilatçılıq qabiliyyətinə, intellektinə və sağlamlığına görə onun ümidlərinə uyğundur.

Müəllif yazır ki, bəhs etdiyi liderlik xüsusiyyətləri Bosniya və Herseqovina ilə dost ölkə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev haqqındadır: "Prezidentlik illərinə nəzər yetirdikdə belə qənaətə gəlmişəm ki, İlham Əliyevin şəxsiyyətində həm islahatçı, həm sabitlik, həm də daxili siyasi tarazlığın saxlanması amili cəmləşib. Ümumilikdə etiraf etmək lazımdır ki, İlham Əliyev nadir şəxsiyyətdir. Azərbaycan Avropa və Asiyanın, Qərb və Şərqin kəsişdiyi nöqtədə yerləşdiyi üçün bu ölkənin dövlət başçısı da hər iki qitənin və iki sivilizasiyanın dəyərlərini, ehtiyaclarını, mənəvi və milli keyfiyyətlərini özündə əxz etdirməlidir. İlham Əliyev bu xüsusiyyətlərə malik olduğu üçün çox spesifik bir regionda yerləşən ölkəyə artıq uzun illərdir məharətlə rəhbərlik edir, sabitlik, davamlılıq və inkişafın təminatçısı kimi çıxış edir".

Qeyd edilir ki, Prezident İlham Əliyevin uzaqgörənliyi, ona xas olan enerji, nitqlərinin məntiqi, natiqlik qabiliyyəti və praktiki fəaliyyəti istənilən adamı valeh edir. Uzaqgörənlik yalnız böyük dövlət xadiminə və siyasi xadimə xasdır. Prezident İlham Əliyevin uzaqgörənliyi və həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan qlobal miqyasda dialoq, anlaşma, tolerantlığın yayılması kimi dəyərlərin şaxələndirilməsi və təşviqinə töhfə verən ölkə kimi qiymətləndirilib. O, müxtəlif beynəlxalq layihələrin, o cümlədən Şərq-Qərb, Şimal-Cənub, qədim İpək Yolunun tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun, TANAP və TAP enerji layihələrinin,

Bölmənin digər xəbərləri

24.12.2019 [12:29]
Prezident İlham Əliyevin yerli jurnalistlərə müsahibəsi Türkiyənin aparıcı KİV-ləri tərəfindən geniş işıqlandırılıb

24.12.2019 [11:45]
Dünya KİV-ləri AZƏRTAC-ın "İlham Əliyev. Əli xalqın nəbzində olan islahatçı Prezident" sərlövhəli məqaləsini yayıb

24.12.2019 [04:26]
Mərkəzi Seçki Komissiyası bələdiyyə seçkilərinin ilkin nəticələrini açıqlayıb VİDEO

24.12.2019 [01:10]
Məhkəmə hakimiyyətinin müstəqilliyinin real təminatçısı

mədəniyyətlərarası dialoq platformasına çevrilmiş "Bakı Prosesi"nin, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və Sivilizasiyalar Alyansının Qlobal Forumunun, habelə Azərbaycanda 2016-cı ilin "Multikulturalizm İli" və 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsinin təşəbbüskarı olan görkəmli siyasi liderlərdən biri kimi dünyada tanınır. İlham Əliyev dövlət başçılarının və beynəlxalq təşkilatların rəhbərlərinin hörmət və rəğbətini qazanıb. Bu mənada, müasir dövrün çağırışlarına baxmayaraq, Bakıda Rusiya və NATO danışıqlarının keçirilməsini göstərmək olar. 2011-ci ilin oktyabr ayında 155 ölkənin dəstəyi ilə Azərbaycan Respublikasının ilk dəfə BMT-nin Təhlükəsizlik Şurasının 2012-2013-cü illər üçün qeyri-daimi üzvü seçilməsini, 2019-cu ilin oktyabr ayında Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünü, habelə təşkilata sədrliyin Azərbaycana keçdiyini xatırlatmaq yuxarıda qeyd edilənlərə sübutdur.

Vurğulanır ki, Prezident İlham Əliyev öz fəaliyyəti ilə Azərbaycan ilə Bosniya və Herseqovina arasında əməkdaşlığın inkişaf etdirilməsinə birbaşa töhfə verir. Bu xüsusda qeyd edilməlidir ki, Azərbaycan Respublikası tərəfindən edilən yardım, həyata keçirilmiş çoxsaylı layihələr, eləcə də 2014-cü ildə Bosniya və Herseqovinanın üzləşdiyi daşqınlardan sonra Prezident İlham Əliyevin göstərişi əsasında humanitar yardımın Bosniya və Herseqovinaya göndərilməsi yüksək qiymətləndirilir: "Ölkələrimiz arasında dostluğun əlaməti olaraq edilmiş bu yardıma görə bir daha Prezident İlham Əliyevə və Azərbaycan xalqına təşəkkürümü bildirirəm".

Məqalədə bildirilir ki, Prezident İlham Əliyev Azərbaycan xalqını firavanlığa və tərəqqiyə aparan, Bosniya və Herseqovina ilə strateji tərəfdaşlığın təminatçısı olan liderdir.

Aygün Əliyeva

AZƏRTAC-ın xüsusi müxbiri

Sarayevo

© Materiallardan istifadə edərkən hiperlinklə istinad olunmalıdır

Mətndə səhv varsa, onu qeyd edib ctrl + enter düyməsini basaraq bizə göndərin

MÜƏLLİFLƏ ƏLAQƏ

MULTİMEDİA VİDEO İNFOQRAFİKA

24.12.2019 [12:50]
Sabah bölgələrdə qar yağacağı gözlənilir

24.12.2019 [10:06]
Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 22 dəfə pozub

24.12.2019 [09:11]
Mərkəzi Seçki Komissiyası bələdiyyə seçkilərinin ilkin

23.12.2019 [22:51]
Prezident İlham Əliyev bir qrup yerli jurnalistə ilin yekunları ilə

Bütün Videolar

SİYASƏT

İslahatlar strategiyasının müəllifi

24.12.2019 [12:29]
Prezident İlham Əliyevin yerli jurnalistlərə müsahibəsi Türkiyənin aparıcı KİV-ləri tərəfindən geniş işıqlandırılıb

İQTİSADİYYAT

Neftin qiyməti bu ay 10 faiz artıb

24.12.2019 [12:37]
Bakıda rus və ingilisdilli turizm bələdçilərinə təlimlər keçirilib

ELM VƏ TƏHSİL

"Gənclərin innovasiya layihəsi"nə başlanılıb

24.12.2019 [12:51]
AzTU Milli Aerokosmik Agentliyinin Ekologiya İnstitutu ilə əməkdaşlıq müqaviləsi imzalayıb

MƏDƏNİYYƏT

"Azərbaycan vokalçıları" festivalı çərçivəsində silsilə konsertlər təşkil

24.12.2019 [08:31]
Tanınmış yazıçının hekayələr kitabı rus dilində nəşr olunub

24.12.2019 [11:45]
Dünya KİV-ləri AZƏRTAC-ın "İlham Əliyev. Əli xalqın nəbzində olan islahatçı Prezident" sərlövhəli məqaləsini yayıb

24.12.2019 [12:35]
On bir ayda Azərbaycanda 30 milyard dollarlıq ticarət əməliyyatları aparılıb

24.12.2019 [12:34]
Nizami ənənələrini özünəməxsus şəkildə davam etdirən sənətkar - Arif Ərdəbili

24.12.2019 [00:36]
"Uğurlarımızla 2020-yə" adlı tədbir keçirilib

24.12.2019 [11:24]
İlham Əliyev – Güclü siyasi lider, novatorluq və dinamizm

24.12.2019 [12:09]
Cari ildə paytaxtda 261 küçə və prospektdə piyada xətləri bərpa olunub

24.12.2019 [10:54]
Təhsil Nazirliyi: Psixoloqların diaqnostik qiymətləndirilməsinə başlanılıb

23.12.2019 [21:46]
Tanınmış tarzən Əhsən Dadaşovun ömür yolundan bəhs edən kitabın təqdimatı olub

TURİZM

Bakıda rus və ingilisdilli turizm bələdçilərinə təlimlər keçirilib

21.12.2019 [18:33]
Dubay yubiley şopinq-festivala hazırlaşır

20.12.2019 [15:43]
Cari ilin 11 ayında Azərbaycana dünyanın 192 ölkəsindən 3 milyona yaxın turist gəlib

19.12.2019 [15:42]
Azərbaycanın turizm imkanları: Əldə olunan nəticələr və gələcək perspektivlər

SƏHİYYƏ

Tibb təhsili sahəsində əməkdaşlıq etmək üçün İran ilə Azərbaycanın

21.12.2019 [17:54]
Tibb Universitetində ödənişsiz oftalmoloji əməliyyatlar aparılıb

21.12.2019 [17:29]
Çexiyada onkoloji xəstəliklər üçün hüceyrə-gen terapiyası tətbiq edilib

21.12.2019 [13:27]
Hər il dünyada 16 mindən çox insan döş qəfəsinin travmatik zədələnmələri səbəbindən vəfat edir VİDEO

EKOLOGİYA



Dekabrın 24-də ölkə ərazisində hava əsasən yağmursuz keçəcək

23.12.2019 [12:42]
MDB ekspertləri MDB ölkələrinin hidrometeorologiya fəaliyyətinin inkişafı strategiyası layihəsini müzakirə edəcəklər

23.12.2019 [12:18]
Vaşaq Almaniyaya qayıdır

22.12.2019 [13:56]
Azərbaycanda dekabrın 23-nə gözlənilən hava proqnozu

CƏMİYYƏT

"Aztəminatlı ailələrə birdəfəlik yardım göstərilməsi haqqında" Sərəncam 73

24.12.2019 [11:49]
Bu gün "ASAN Radio"nun yaradılmasından 4 il ötür

24.12.2019 [11:25]
Vətən müdafiəçilərinin maddi və sosial vəziyyətinə qayğı dövlət başçısının diqqət mərkəzindədir

24.12.2019 [11:19]
Sabunçu rayonunda velosipedçini vuraraq hadisə yerindən yayınan avtobus sürücüsü saxlanılıb

İNCƏSƏNƏT
MUSİQİ
TEATR VƏ KİNO
TURİZM

EYOF Bakı 2019
FORMULA-1

BU MARAQLIDIR

REGİONLAR
ELM VƏ TƏHSİL
QAN YADDAŞI

AZƏRTAC APP

2019 © AZƏRTAC. Müəllif hüquqları qorunur. Məlumatdan istifadə edərkən hiperlinklə istinad olunmalıdır.

Ana səhifə | Bizim tərəf